**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜASİR DÖVRDƏ SİYASİ İNSTİTUTLARIN HUMANİSTLƏŞMƏSİNDƏ JURNALİSTİKANIN ROLUNUN SOSİAL - FƏLSƏFİ TƏHLİLİ

İxtisas: 7207.01 - Sosial fəlsəfə

Elm sahəsi: Fəlsəfə

İddiaçı: **Elçin Məmmədağa oğlu Sərdarov**

Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun "Müasir dünyanın fəlsəfi cərəyanları" şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | fəlsəfə elmləri doktoru, dosent<br>**Lalə Cəfər qızı Mövsümova** |
| Rəsmi opponentlər: | fəlsəfə elmləri doktoru, professor<br>**Adil İsgəndər oğlu Əsədov** |
| | fəlsəfə elmləri doktoru, professor<br>**Qızılgül Yasin qızı Abbasova** |
| | fəlsəfə üzrə fəlsəfə doktoru<br>**Məmmədtağı Həsən oğlu Rzayev** |

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.33 Dissertasiya Şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ____________ | fəlsəfə elmləri doktoru, professor<br>**İlham Ramiz oğlu Məmmədzadə** |
| Dissertasiya şurasının elmi katibi: ____________ | fəlsəfə üzrə fəlsəfə doktoru, dosent<br>**Sevinc Arif qızı Həsənova** |
| Elmi seminarın sədri: ____________ | fəlsəfə elmləri doktoru, professor<br>**Mina Telman qızı Hacıyeva** |

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənilmə səviyyəsi.** Bu gün dünyanın bir çox aparıcı ölkələrinin siyasətində, qlobal və yerli problemlərin həllində insan amilinin rolu artmaqdadır. Sivilizasiyanın inkişafı, ölkələrin öz xalqlarının resurslar və yeni texnologiyalarla təmin etmək arzusu fərdin inkişafı üçün ən azad və əlverişli sosial şəraitin yaradılmasını, ölkənin ictimai və siyasi həyatında iştirakını və yaradıcı imkanlardan tam şəkildə və səmərəli istifadə edilməsini tələb edir. Alimlər, tədqiqatçılar və jurnalistlər humanizm probleminə, siyasi institutların fəaliyyətində insana yönəlmiş idarəetmə mövzusuna müəyyən qədər diqqət yetirmişlər. Buna baxmayaraq, müasir dövrdə bəşəriyyət qarşısında yeni çağırışlarla bağlı hələ də planetdə sülh və harmoniyanın, humanitar dəyərlərin qorunmasına, müharibələrin qarşısının alınmasına, məcburi miqrasiya, yoxsulluq, bərabərsizliklər, təbii fəlakətlər, yeni siyasi qurumların ortaya çıxması, jurnalistikada və elmi düşüncədə yeni texnologiyalardan istifadə olunması mövzunun tədqiqində yeni yanaşmaya ciddi ehtiyac duyulur.

Yeni texnologiyaların inkişafı şəraitində jurnalistika ictimai-hüquqi, mədəni, təhsil, ekoloji baxımdan, eləcə də insan təhlükəsizliyi və cəmiyyətin davamlı inkişafı baxımından vacib olan kütləvi məlumatların yayılmasına dair funksiyaları nəzərdə tutur. Bu baxımdan, çap və elektron medianı təmsil edən jurnalistlər televiziya və radio yayımı peşəkarlıqlarının artırılması, rəqabət şəraitində ixtisaslaşması və reklam uğrunda mübarizə, insan maraqları və insanın inkişafına yönəlmiş jurnalist tədqiqatlarının hazırlanmasını öyrənməli, humanist dəyərlərin, sülhün və xeyirxahlığın keşiyində durmalıdırlar.

Müasir dövrdə tanınmış alimlər, dövlət və ictimai xadimlər mütəfəkkirlərin ictimaiyyətin məlumatlılığı və savadlılığı, söz azadlığı, jurnalistin etikasının artırılması ilə bağlı məsləhətlərinə və kəlamlarına böyük diqqətlə yanaşırlar. Ümummilli lideri Heydər Əliyev "*siyasi plüralizmin, söz azadlığı yolunu hüquqi demokratik dövlətin və Azərbaycan dövlətinin demokratik prinsiplərinin*

*yaranması üçün əsas şərtləri*" [1]adlandırırdı. Onun siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Mətbuat Şurasının idarə heyətinin üzvləri ilə görüşündə mətbuatın vəziyyətini qiymətləndirərək demişdir: "*Jurnalistlər çox məsuliyyətli olmalıdırlar. Burada qərəzsiz fikir çox vacibdir. Mən media sahəsində gələcək inkişafı müstəqil, sözün əsl mənasında azad mətbuatın möhkəmləndirilməsində görürəm".*[2]

Azərbaycanda cəmiyyətin daha çox humanistləşməsi və demokratikləşməsi istiqamətində işlər davam etdirilir, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi və ölkədə dünya ictimaiyyətinə inteqrasiyaya yönəlmiş institusional islahatlar aparılır. Əhaliyə göstərilən xidmətlərin şəffaflığının təmin edilməsi və xidmətlərin yaxşılaşdırılması istiqamətində müsbət tədbirlər sırasında bir sıra dövlət qurumlarının yaradılması və onların fəaliyyətini qeyd etmək olar. Bununla yanaşı, siyasi qurumların humanistləşməsi sahəsində həll edilməmiş məsələlər vardır ki, onların həlli böyük aktuallıq kəsb edir. Strateji planlaşdırma təcrübəsinin inkişaf etdirilməsi, kadrların idarə edilməsinin təkmilləşdirilməsi, ictimaiyyətlə qarşılıqlı əlaqələrin yaradılması, idarəetmədə üfüqi əlaqələrin və qeyri-rəsmi formaların istifadəsi, insani dəyərlərin, vətəndaşların mülkiyyət hüquqları, intellektual mülkiyyətin qorunması kimi məsələlərin araşdırılmasına ehtiyac duyulur.

Hümanizm prinsipinə uyğun olaraq ölkədə tənzimləmə aktları qəbul edilir, lakin onun siyasi və hüquqi çərçivəsini təhlil etmək lazımdır. Dövlət hakimiyyətinin humanistləşməsi dövlət qurumunda hüquqi və institusional islahatların həyata keçirilməsini nəzərdə tutur, bu da adi bir vətəndaşın və hökumət tərəfindən seçilmiş vəzifəli şəxslərin mövqeyini bir araya gətirməkdir. Bu baxımdan qanunvericilik sahəsində, demokratik quruluşda, icra və bələdiyyə orqanlarında islahatlar həyata keçirilir.

Azərbaycanda siyasi qurumların ictimaiyyət və mətbuatla iş üsullarının yaxşılaşdırılması, insan problemlərinin və ətraf mühitin qorunmasını daha effektiv şəkildə həll edilməsi, siyasi məsələləri

---

[1] Алиев Г. Дорога независимости. Избранные мысли. Б., Издательство «Азербайджанский университет», 1997, с.33

[2] Алиев И. Я призываю журналистов к патриотизму. AZƏRTAC. 26.08.2010.

əhatə edən jurnalist heyətinin peşəkarlığını artırmaq üçün ixtisaslaşmış siyasi, sosial-ekoloji və vətəndaş jurnalistikasının imkanlarından istifadə edilməsi, siyasi qurumların fəaliyyətini əhatə edən jurnalist heyətinin peşəkarlığının artırılması, gənc nəslin humanizm ruhunda böyüməsi və digər mədəniyyətlərə hörmətlə yanaşması, insan potensialının artırılması və insan inkişafı üçün siyasi institutların institusional islahatlarının aparılması böyük aktuallıq kəsb edir.

Tarixin müxtəlif dövrlərində görkəmli mütəfəkkirlər, filosoflar, tarixçilər, şairlər, siyasətçilər öz əsərlərində cəmiyyətdə elə ictimai münasibətlərin qurulması ideyasını inkişaf etdirməyə çalışırdılar ki, burada qanunun aliliyi, ədalət, azadlıq, xeyirxahlıq, cəsarət, valideynlərə və nəslin ağsaqqallarına hörmət, qadınlara və uşaqlara, təbiətə və heyvanlara humanist münasibət dövlətin əsas dəyərləri kimi hesab olunurdu. Bu dəyərləri ilə türk xalqlarının ortaq eposu "Dədə Qorqud"da, Nizaminin, Füzulinin, İbn Sinanın, Atatürkün, M.Qandinin, A.Bakıxanovun, M.Kazımbəyin, M.F.Axundovun, H. Zərdabinin, N.Nərimanovun əsərlərində və digər əsərlərdə rast gəlirik.[3]

Humanizm problemi, insan şəxsiyyətinin təkmilləşməsi və inkişafı, insanın azadlığı və xoşbəxtliyi, dövlət idarəetməsi məsələləri antik dövrün filosoflarının yaradıcılığında öz əksini tapır.

Humanizmin ayrı-ayrı nəzəri aspektlərinə filosoflar, tədqiqatçılar və ideoloqlardan Platon, Əl-Farabi, Əl-Kindi, İbn-Rüşt, Konfutsi, F. Akvinski, İ.Kant, V.Şekspir, K.Marks, L.Tolstoy, F.Dostoyevski, P.Kurtz, M. Haydegger, J.Haksli, T. Oyzerman,

---

[3]Гянджеви Н. Сокровищница тайн. Баку, 2004, 264 с.; Физули М. Произведение. В 6 томах. Том. II Баку, 2005, 336 с.; Сина А.А. Избранные.Том 2, Руководство по философии. Трактат об определениях. Трактат об этике, Ашхабад, 2003, 187 с.; Atatürk, M. Nutuk, [l.Cilt] 1919-1920, The Speech, (Vol. 1) 1919-1920 /M.Atatürk., İstanbul: Türk Devrim Tarihi Enstitüsü Yayını, M.E.Basımevi, 1950, 432 с.;Книга Махатмы Карамчанда Ганди, Джека Гомера «Мудрость Ганди. Мысли и изречения», Mineola NY, 1951, 242 с.; Бакиханов А. Записки. Сочинения. Письма. Баку, 1983, 344 с.; Казем-Бек М. Избранные произведения. Баку, Элм, 1985, 423 с.; Ахундов М.Ф. Избранные произведения. 1953, 379 с.; Зардаби Г. Избранные произведения.Баку, 1960, 474 с.; Нариманов Н. Избранные произведения. Баку, 1988, 366 с.

K.Yaspers, Z. Göyalp və başqaları öz işlərində xüsusi yer ayırıblar[4]. Tanınmış-alim tədqiqatçılardan T.Parsons, F.Fukuyama, kulturoloq O.Şpenqler, M.Veber, M.Fuko, J.Liotar, R.İnqhard, Z.Freyd, Harvard Universitetinin professoru S.Hantinqton, italyan alimləri V.Pareto və N.Moska, P.Druken, T.Hobbs, S. Lokk, F. Şellinq, rus alimləri P.Qureviç, P.Sorokin, B. Çiçerin, V. Solovyov, Z. Trofimova, V.Vernadski [5] bu istiqamətdə maraqlı əsərlər yazmışlar. Öz əsərlərində onlar ictimai yönümlü dövlət sistemlərində hüququn rolu və əhəmiyyəti, liberal islahatların müsbət və mənfi cəhətləri, ideoloji axtarışlar, imkanlar və humanitar dəyərlərin üstünlüyü olan dövlətlərin formalaşmasına, hümanist cəmiyyətlərin müxtəlif "institusialaşdırma modellərinə" real təsirinin rolu və əhəmiyyətini araşdırmışlar.

Azərbaycan alim və filosofları İ.Həbibbəyli, İ.Məmmədzadə, R.Mehdiyev, N.Paşayeva, Z. Quluzadə, A.Hüseynov, İ.Rüstəmov,

---

[4] Платон. Сочинение в 4-х томах, Том 3, Часть 1, СПб, 1971, 748 с.; Аль Фараби. Социально этические трактаты, Алма-ата,1978, 398 с.; Сагадеев А.В. Ибн-Рушд (Аверроэс). М.,1973, 207 с.; Конфуций. Уроки мудрости: сочинения. Харьков, 2010, 958 с.; Аквинский Ф. Онтология и теория познания (Фрагменты сочинений). М.:2001; Маркс К. и Энгельс Ф. Сочинения. Издание второе. М.,1960.; Достоевский Ф. Сочинения. Издание Н.А. Основского. М.,1860, Куртц П. Новый скептицизм: Исследование и надежное знание /Пер. с англ. и предисл. В. А. Кувакина. М. 2005; Хайдеггер М. Письмо о гуманизме. http:/philosophy.ru/library/heldeg/humanism.html1; Ойзерман Т.Гуманизм: реальность и утопия. кн.: Диалоги.М.:1992; Ясперс К. Смысл и назначение истории. М.:1991;

[5] Парсонс Т. О социальных системах. М.: 2002; Фукуяма Ф. Доверие: социальные добродетели и путь к процветанию. М.: 2004; Лиотар Ж. Состояние постмодерна.Пер. с франц: Шматко Н. М.: Издательство «Алетея»,1998; Инглхарт Р., Вельцель К. Модернизация, культурные изменения и демократия: Последовательность человеческого развития. М.: Новое издательство, 2011; Фрейд З. Остроумие и его отношение к бессознательному. М.: 2006; Хантингтон С. Третья волна. Демократизация в конце XX века /Пер. с англ. М.: «Российская политическая энциклопедия» (РОССПЭН),2003; Друкер П. Задачи менеджмента в XXI веке.: Пер. с англ. М.: Издательский дом «Вильямс», 2004; Вебер М. Избранные произведения / Пер. с немецкого. М.:Прогресс,1990; Локк Д. Два трактата о правлении. М.: Социум, 2014; Гуревич П. Проблема целостности человека. М.:2004; Сорокин П. Социальная и культурная динамика. М.: Астрель, 2006

S.Xəlilov, A.Şükürov, R.Əliquliyev, U.Ələkbərov, R. Aslanova, Ə.Abasov, Ə. Abbasov, R.Mirzəzadə, L.Mövsümova, R. Əzimova, Ə.Tağıyev, M.Sərdarov, S.Hüseynov, Q.Abbasova və başqaları[6] mətbuatda hümanizmin və təhsilin müxtəlif aspektlərinə dair maraqlı fikirlər irəli sürmüşlər.

İnsan şəxsiyyətinin müdafiəsi mövzuları B.Çaplı, N.Hüseynli, X.Hüseynova, A.Kərimova, Z.Məmmədli, L.Vəzirova, E.Sərdarov, L. Alekseeva, vətəndaş jurnalistikasının aktual məsələləri İ.Dzyaloşinski[7] və digər tədqiqatçıların əsərlərində təhlil edilmişdir

---

[6] Габибейли И. Академия Наук Азербайджана – прошлое и настоящее. http://irs-az.com-/new/pdf/201512/1451130591172268407.pdf; Мамедзаде И. «Опыт интерпретации морали». Баку. 2006; Мехтиев Р. Философия. Баку,Шарг-Гарб, 2009; Пашаева Н.Человек, как объект художественного исследования (на основе творчества народного писателя Эльчина). Монография. Баку, 2003; Гулизаде З. Некоторые концептуальные вопросы исследования и преподавания гуманитарных наук// Современная философия и Азербайджан: история, теория и обучение. Баку, 2010, 204;
Гусейнов А. Золотое правило нравственности. М.1988; Рустамов И. История социологии в Западной Европе и США. Учебник для высших учебных заведений. Баку, 2010; Халилов С. Любовь и интеллект М.: ООО ИПЦ "Маска", 2009; Мирзазаде Р. Политика мультикультурализма: в диалоге религия и гендер. Баку,2013; Мовсумова Л. Женское начало в истории человечества. Баку, Элм,2011; Əzimova R.Müasir Azərbaycanda təhsilin sosiologiyası. Bakı, 2014; Tağıyev Ə. Etnik siyasət. Bakı: İnam,1997; Сардаров М., Глобализация и миграционная политика. Баку. 2010; Гусейнов С. Стратегические направления устойчивого развития человека. Баку, 2003; Ахмедов М. Журналистская этика в Азербайджане: проблемы и задачи (В контексте гражданского общества). Бак,.2017; Бабаев Ф. Гражданская интеграция в Азербайджане и СМИ. Баку, Апостроф, 2011

[7] Çaplı B., Hüseyinli N., Hüseynova X., Kərimova A.,Məmmədli Z.,Vəzirova L.Televiziya jurnalistikası. https://rm.coe.int/1680708278; Сардаров Э. «Социально-философское осмысление развития социально-экологической журналистики». Сборник научных статей: «Gileya: scientific herald» 123 выпуск (8), 2017 г. Педагогического Университета имени М.П.Драгоманова 350-səh. s.213-218; Алексеева Л.П.Судебная реформа: итоги, приоритеты, перспективы. М.: 1997; Дзялошинский И. Журналистика соучастия. Как сделать СМИ полезными людям. М., Престиж, 2006, 104 с.

Hümanizm məsələlərini tədqiq edən alimlər və tədqiqatçılar humanizm termininin izahına və anlayışına, insan həyatının etik və mənəvi aspektlərinə, insanın harmonik inkişafına və cəmiyyətin sosial yönümlü siyasi və ictimai həyatının öyrənilməsinə müəyyən töhfə versələr də siyasi institutların humanistləşməsinə jurnalistikanın rolunu təsiri tədqiq etməmişlər.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi - humanizm ideyalarını siyasi qurumlara təşviqində və fəlsəfi düşüncə kontekstində onların fəaliyyətinin insanın mənafelərinə uyğun yaxşılaşdırılmasına dəstək verilməsində jurnalistikanın rolunun sosial-fəlsəfi təhlilini aparmaqdır. Dissertasiya işində aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- müasir fəlsəfi fikir kontekstində humanizm ideyalarının cəmiyyətə çatdırılmasında və siyasi institutların fəaliyyətlərinin səmərəliliyinin və insanyönümlüyün artırılmasına köməklikdə jurnalistikanın roluna sosial-fəlsəfi qiymət verilməsi;
- humanizmlə bağlı müxtəlif anlayışların, elmi yanaşmaların və şərhlərin nəzərdən keçirilməsi;
- jurnalistikanın müasir şəraitdə imkanlarının tədqiq edilməsi,
- bazar iqtisadiyyatı ilə sosial yönümlü cəmiyyət quruculuğu kontekstində siyasi hakimiyyət institutlarının inkişaf dinamikasını və səmərəliliyini və onların sinerjisini təhlil edilməsi və s.

**Müdafiəyə təqdim olunan əsas müddəalar:** Bu məqsədə çatmaq üçün qarşıya bir sıra vəzifələr qoyulmuşdur:

- humanizm ideyalarının siyasi qurumlara təşviqində və fəlsəfi düşüncə kontekstində, onların fəaliyyətinin insanın mənafelərinə uyğun yaxşılaşdırılmasında jurnalistikanın rolunun sosial-fəlsəfi qiymətləndirilməsi;
- humanizm və onun konsepsiyalarının müxtəlif elmi yanaşmalarını və şərhlərini nəzərdən keçirmək.
- humanizmin məzmununu və mənasını daha dəqiq izah etmək üçün "hümanizm" konsepsiyasına dair tarixi fikir və konsepsiyaları öyrənmək və müqayisə etmək;
- jurnalistikanın imkanlarını nəzərdən keçirmək və siyasi qurumların işinin inkişaf dinamikasını və effektivliyini və onların

bazar iqtisadiyyatı ilə sosial yönümlü bir cəmiyyətin qurulması kontekstində sinerjini təhlil etmək.

**Tədqiqatın obyekti** jurnalistikada və cəmiyyətin humanistləşdirilməsində nəzəri-metodoloji aspektlərin və dünyagörüşlərinin müxtəlif növlərinin tədqiqi, jurnalistikanın inkişafı kontekstində siyasi institutların humanistləşdirilməsi problemlərinin təhlili, habelə müasir demokratik çağırışların və bu prosesdə müasir, ixtisaslaşmış jurnalistikanın rolunun açıqlanmasıdır.

**Tədqiqatın predmeti** jurnalistikanın və onun müasir imkanlarının siyasi institutların humanistləşməsində rolunun sosial fəlsəfi təhlilidir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi konkret olaraq müdafiəyə çıxarılan aşağıdakı elmi müddəalarda öz əksini tapmışdır:

1.Dissertasiyada ictimai, ekoloji və vətəndaş jurnalistikasında yeni tendensiyalar, müasir konvergent jurnalistikanın rolu, cəmiyyətdə humanizm prinsiplərinə doğru düzgün münasibətin formalaşdırılmasında jurnalistikanın və elmi düşüncənin imkanları və insanların rifahının yaxşılaşdırılmasına yönəlmiş siyasi institutların işində institusional islahatların mahiyyəti öyrənilmişdir.

2.İctimai idarəetmə və islahat sahəsində müxtəlif ölkələrin siyasi qurumlarının təcrübələrinin müqayisəli sosial-fəlsəfi təhlili aparılmışdır, institusional islahatların jurnalistika və vətəndaş cəmiyyətinin inkişafı ilə əlaqəsi, kommunikasiya və şəffaflıq siyasəti ilə qarşılıqlı bağlılığı əsaslandırılmışdır.

3.Müəllifin nöqteyi-nəzəri ölkələrin inkişafı ilə bağlı ümumi tendensiyalara və dövlətin insana yönəldilmiş bir cəmiyyətdə yeni kommunikasiya siyasətinə, onun hüquq və azadlıqlarının həyata keçirilməsinə ayırdığı rolu ilə əsaslandırılmışdır.

4.Cəmiyyətin, siyasi institutların humanistləşməsində, dövlət idarəetməsinin təkmilləşdirilməsində uğurlar və çətinliklər göstərilmişdir.

5. Tədqiqat işində hümanizm konsepsiyasının daimi təkamülü, onunla əlaqəli elmi kəşflər və siyasi dəyişikliklər, yeni hümanizmin yaranması ideyası müzakirəyə çıxarılmışdır.

6.Cəmiyyətdə şəffaflığın təmin edilməsi, "Açıq hökumət" ideyalarının təşviqi, insanların ictimai məlumatlara bərabər imkanlarının artırılması, ictimai və siyasi həyatda iştirak və nəzarət üçün planetin bütün xalqları üçün məqbul olan rəqəmsal humanizmin sosio-mədəni modelinin məzmununun təkmilləşdirilməsi, eləcə də inkişaf etmiş media texnologiyalarının və idarəetmə və kommunikasiya texnologiyalarının siyasi qurumlar tərəfindən istifadə edilməsi təklif olunmuşdur.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Dissertasiya işinin nəzəri əsaslarının vacib hissəsini Ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin irəli sürdüyü konseptual mövqeləri, humanitar ideyaların təbliği sahəsində fəaliyyət göstərən Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsləri, çıxışları təşkil edir. Dissertasiyanın yazılmasında Azərbaycan, Qərb, rus alimlərinin və klassik filosofların tədqiqatlarının nəticələrindən metodoloji əsas kimi istifadə edilmiş sistemli yanaşma metodu, eləcə də empirik, nəzəri və müqayisəli tədqiqat üsullarından istifadə olunmuşdur. Tədqiqat mövzusunun müxtəlif aspektlərini açıqlamaq üçün rəsmi sənədlər və çıxışlar öyrənilmiş və təhlil edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.**

Dissertasiyanın nəticələrindən ictimaiyyətlə əlaqələr siyasətini tənzimləmək üçün siyasi qurumların fəaliyyətini təkmilləşdirmək, media sahəsində humanitar və sosial mövzularda işləyən jurnalist işçilərinin hazırlanması işini gücləndirmək, ictimai həyatın humanistliyə dair ictimai və elmi dialoqun təşviqində faydalanmaq olar. Dissertasiya işi sosial fəlsəfə, informasiya siyasəti, jurnalistika, mədəniyyətşunaslıq üzrə dərsliklərin, proqramların, mühazirə mətnlərinin, metodik vəsaitlərin hazırlanması üçün yeni mənbə rolunu oynaya bilər.

**İşin aprobasiyası.**

Tədqiqat işi AMEA Fəlsəfə İnstitutunun “Müasir dünyanın fəlsəfi cərayanları” şöbəsində yerinə yetirilmiş, ilkin müzakirədən keçmiş, müzakirənin nəticəsi kimi “Sosial fəlsəfə” ixtisası üzrə müdafiəyə məsləhət görülmüşdür. Dissertasiya işinin əsas nəzəri

müddəaları və praktiki tövsiyələri müəllifin Azərbaycan Respublikasında və xarici ölkələrdə elmi seminarlarda, beynəlxalq elmi-praktiki konfranslardakı çıxışlarında təqdim edilmişdir.

**Dissertasiya işinin strukturu.** Dissertasiya işi girişdən (25.190 işarə), 3 fəsil (I fəsil - 64.795 işarə; II fəsil - 67.953 işarə, III fəsil - 102.020 işarə), 7 paraqrafdan, nəticə (6.114 işarə) və ədəbiyyat siyahısından (34.155 işarə) ibarətdir. . Dissertasiyanın ümumi həcmi 301 730 işarədir, biblioqrafiya istisna olmaqla - 267 575 simvol.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **Giriş** hissəsində tədqiqat mövzusunun aktuallığı əsaslandırılır, tədqiqatın predmeti və obyekti, məqsədi və vəzifələri qeyd edilir, tədqiqat işinin nəzəri və metodoloji əsasları, elmi yeniliyi və praktiki əhəmiyyəti göstərilir, müdafiəyə təqdim olunan əsas elmi müddəalar müəyyənləşdirilir və dissertasiyanın nəticələrinin aprobasiyası verilir.

Dissertasiya işinin **I Fəsli "Jurnalistika və cəmiyyətin humanistləşməsinin nəzəri-metodik aspektləri"** adlanır və iki yarımfəsildən ibarətdir. Bu fəsil jurnalistikaya dair nəzəri baxışlar və konsepsiyalar, muasir fəlsəfədə humanizm anlayışının sosial-fəlsəfi təhlili ilə bağlı məsələlərin tədqiq olunmasına həsr edir. Bu fəslin **"Jurnalistikanın nəzəri baxışları və konsepsiyaları"** adlanan birinci yarımfəslində qeyd edilir ki, müasir dünyada jurnalistika cəmiyyətə ən vacib və yaxın sahələrdən biri olmaqdadır. Onun hesabına cəmiyyətin nümayəndələri məlumat əldə edir, maariflənir, ictimai dialoqu inkişaf etdirir və dünyada həyatı daha yaxşı səviyyədə inikas etdirir.

Yeni texnologiyaların, süni intellektin inkişafı baxımından jurnalistika ictimai-hüquqi, mədəni, təhsil, ekoloji baxımdan, eləcə də insan təhlükəsizliyi və cəmiyyətin davamlı inkişafı baxımından vacib olan kütləvi məlumatların yayılması funksiyasını nəzərdə tutur.

Qəzet və elektron məqalələr, analitik təhlil, televiziya və radio proqramları, internet jurnallar, müəllif bloqları və təhsil vebinarları şəklində jurnalistika sahəsinə aid məhsulların istifadəsi prosesində

yaranan tendensiyalar hər iki tərəfin - fərdlərin və cəmiyyətin inkişafına təsiri ilə səciyyələnir. Onların münasibətləri əsasən jurnalistikada xüsusi nəzəriyyələrə və münasibətlərə əsaslanır. Bu nəzəriyyələr informasiya mediasının hədəflərini, məqsədlərini, formalarını və fəaliyyətini müəyyən edir.

Jurnalistikanın həqiqətən vətəndaşlara, cəmiyyətə, bütövlükdə sivilizasiyaya xidmət etməsi, beynəlxalq sindikatların, hakim dairələrin və ölkələrin geosiyasi maraqlar uğrunda mübarizəsində istifadə olunmamasından, həmçinin ölkə rəhbərlərinin siyasi iradəsindən, cəmiyyətdə müstəqil jurnalistikanın inkişafı üçün münbit şəraitin olmasından, cəmiyyətin yüksək mədəniyyətindən və hüquqi savadlılığından asılıdır.

Bu baxımdan qeyd etmək olardı ki, Azərbaycanın ümummilli lideri Heydər Əliyev mətbuata və peşəkar jurnalistikanın inkişafına böyük əhəmiyyət verərək qeyd edirdi: "*Ölkədə siyasi plüralizmin prinsiplərinə hörmət edilir. Sözün, düşüncənin və inancın azadlığının təmin edilməsi, KİV-in tam inkişafı üçün lazımi şəraitin yaradılması, onların azad fəaliyyəti Azərbaycan dövlətinin başçısı kimi mənim qarşımda duran ən vacib vəzifələrdir. Radio və jurnalistika insanlara təsir göstərir, onların inkişafında, ruhən inkişafında kömək edir, onlara dünyanı açır, onları bütün dünyaya birləşdiri*r"[8].

Bu kursu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev siyasi institutların, müstəqil və demokratik mətbuatın inkişafını dəstəkləyir: "*Dövlət xidməti siyasətinin əsas məqsədi - effektiv məsuliyyətli və demokratik idarəetmənin yaradılması, dövlət orqanlarının fəaliyyətində daha çox çevikliyin və şəffaflığın artırılması və vətəndaşların qayğı və ehtiyacları ilə daha da tam təmin olunmasıdır*[9].

Bu gün milli və xarici jurnalistika, nəzəri və praktik olaraq, insan potensialından və texnoloji inkişafdan istifadə edərək cəmiyyətin məlumatlandırılması və maarifləndirilməsi, insanlarda vətəndaş mövqeyinin formalaşdırılması, sosial dialoqun inkişafı və insanların

[8] Алиев Г. «Дорога независимости». Избранные мысли. Б., Издательство «Азербайджанский университет», 1997, с.33

[9] Алиев И. «Наша цель – развитие».18-я книга. Июнь 2006 - Август 2006. Баку, Азернешр, 2014, с.77-78

rifahının yaxşılaşdırılmasına yönəlmiş cəmiyyətdə humanitar - hüquqi və demokratik təşəbbüslərin təşviqi kimi xeyirxah missiyanı yerinə yetirir.

Qeyd etmək lazımdır ki, kommunikasiya texnologiyalarının demokratik şəraitdə inkişafı, sosial mediaların, qlobal informasiya sisteminin inkişafı kontekstində jurnalistikanın rolunun və funksiyalarının elmi və nəzəri anlayışına ehtiyacını artırır. İctimaiyyətin məlumat əldə etməsi, vətəndaşların hüquq və azadlıqları, jurnalistlərin hüquqları, sosial dialoqun inkişafı, cəmiyyətdə şəffaflıq kimi məsələlərin həllində media və vətəndaş cəmiyyətinə beynəlxalq və milli təşkilatlar forumlarda və seminarlarda böyük yer ayırırlar.

Hazırda tədqiqatçılar mətbuatın bir sıra nəzəriyyələrinin olduğunu irəli sürürlər. "*Mətbuatın dörd nəzəriyyəsi*"nə[10] avtoritar, libertarian, mətbuatın sosial məsuliyyət nəzəriyyəsi və sovet-kommunist nəzəriyyəsi daxildir. Bütün nəzəriyyələrdə jurnalistlərin məsuliyyət probleminin həlli mediya strukturlarının fəaliyyət göstərdiyi sosial və siyasi quruluş kontekstində nəzərə alınır.

Nəticə çıxarılır ki, jurnalistika onun çoxfunksiyalılığı ilə cəmiyyətin məlumatlandırılması və maarifləndirilməsində müstəqil, obyektiv və mütərəqqi qalması üçün səy göstərməli, vətəndaşların sosial məsələlərinin təbliği üçün məsuliyyət daşıyan, dövlət orqanlarının fəaliyyətinə ictimai nəzarəti həyata keçirən, habelə qabaqcıl texnologiyaların istifadəsində, humanist çağırışların, sülh və inkişaf naminə ictimai dialoqun inkişafında operativ və ünvanlılığını təmin etməkdə çevik olmalıdır.

I Fəslin **“Müasir fəlsəfədəki humanizm anlayışının sosial-fəlsəfi təhlili”** adlanan ikinci yarımfəslində dahi Azərbaycan və xarici mütəfəkkirlərin və nüfuzlu alimlərin humanizm fəlsəfəsi, təbiətlə insanın harmoniyası, insani dəyərlər, sülh və ədalət, vətəndaş cəmiyyətinin dəyərləri, insan yönümlü mətbuat ilə bağlı fikirlərinə müraciət edərək onlara münasibət bildirir.

Tədqiqat işində humanizm anlayışının sosial-fəlsəfi fikirdə mənalandırılmasını və şərhini verərkən, müəllif klassik və müasir fəlsəfə nümunələrinə müraciət edir.

[10] Сиберт Ф., Шрамм У.,Питерсон Т.Четыре теории прессы. М.,1998,с.9

Dissertasiyada qeyd edilir ki, ölkə siyasətin və ictimai həyatın humanistləşməsi kimi vacib məsələnin həlli üçün ictimai həyatı tədqiq edən dünya və milli sosial-fəlsəfi elminin zəngin elmi təcrübəsindən istifadə etmək, siyasi institutların hüquqi, elmi bazasının təkmilləşdirilməsi, dövlət strukturlarında və ictimai birliklərdə çalışan vətəndaşlarda lazımi təfəkkürün formalaşdırılması vacibdir. Humanizm təkcə daxili məsuliyyət daşıyan və dünyanın yaradıcı inkişafı və onunla tərəfdaşlıq üçün azad olan bir insanın mənəvi nüvəsi deyil. Humanizm müasir dövlətin, cəmiyyətin və mədəniyyətin mənəvi əsasını, şəxsin və cəmiyyətin ən sağlam həyat tərzini təşkil edir. Onun siyasi və hüquqi ekvivalenti demokratiya, sosial ədalət prinsipləri və insan hüquqlarının təminatıdır.

Humanizm anlayışının mahiyyətini və yeni şəraitdə şərhini açan müasir humanizm nəzəriyyəçilərinin anlayışları aktuallıq kəsb edir və bu dünyəvi və yeni humanizmi, neohumanizm və ekohumanizm, dini və sosial humanizm sahələrində konseptual tədqiqatların dərinləşməsinin əhəmiyyəti barədə nəticə çıxarmağa imkan verir. İctimai və siyasi dairələrdə ədalətli humanizmin öyrənilməsi və təbliği, bu fikirlərin ailə institutları, vətəndaş cəmiyyəti, ailələrdə təhsil, məktəblərdə, QHT-lərdə, dini icmalarda və mediada yayılması onu göstərir ki, humanizm yaşayır və bunu dərk etmənin sayəsində dünya ölkələri sivilizasiyamızı qlobal fəlakətlərdən xilas edə və xalqların mənəvi yenilənməsinə və bərabər inkişafına töhfə verə biləcəkdir.

Dissertasiya işinin **II fəsli “Jurnalistikanın inkişafı kontekstində siyasi institutların humanistləşdirilməsi problemi”** adlanır və iki yarımfəsildən ibarətdir. Bu fəsildə vətəndaş cəmiyyətinin institutlarının inkişafını stimullaşdıran və ona mane olan amillərin sosial-fəlsəfi təhlili aparılır, siyasi institutların və jurnalistikanın insanyönümlüyünə istiqamətləndirilmiş konsepsiyasında transformasiyalar və bunun nəticəsində yaranan yeni reallıqlar tədqiq edilir.

Bu fəslin birinci yarımfəsli **“Vətəndaş cəmiyyəti institutlarının inkişafına təkan verən və mane olan amillərin sosial-fəlsəfi təhlili”** adlanır. Bu yarımfəsildə qeyd edilir ki, millətlərarası və regional münaqişələr və bunun nəticəsi olaraq müharibə illərində iqtisadiyyatdakı tənəzzül, insanların sosial-maddi

vəziyyətinə, mənəvi inkişafına təsir etməməyə bilməzdi. Kommunist və sosialist dəyərlərinə söykənən ideoloji əsaslar hər yerdə taleyin sınaqlarına eyni dözümlülük nümayiş etdirə bilmədi, yeni inkişaf etmiş milli, millətçi, beynəlmiləlçi, kosmopolit, ümumbəşəri və humanist dəyərlərə əsaslanan ideologiyalar isə cəmiyyətdə tam qəbul edilməyib.

Dünyadakı hadisələrin gedişatı göstərir ki, bu ideologiyaların yeri hazırda kifayət qədər dinlə doldurulur. Ayrıca qeyd etmək lazımdır ki, müxtəlif ölkələrdə təsir dairələrini qorumaqda maraqlı olan bəzi dağıdıcı qüvvələr müxtəlif ölkələrdə etnik nifrət və dini dözümsüzlük yaradır. Buna misal olaraq Fələstin-İsrail qarşıdurmasını, İrlandiyadakı protestant və katoliklər arasındakı qarşıdurmanı, Misirdəki münaqişəni, Kəşmirdəki, Afrikadakı müharibəni, Bosniya, Rohinya, Uyğur müsəlmanlarının soyqırımını, Xocalıda azərbaycanlıların soyqırımını, Ukrayna xalqının humanitar vaciəsi və s. göstərmək olar.

Jurnalistikanın siyasi institutların humanistləşdirilməsi məqsədinə təkçə dünyanın bir sıra ölkələrində hakimiyyət tərəfindən dəstəklənən yalnız dini və etnik qarşıdurmalar, ksenofobiya və millətçilik mane olmur. Həmçinin, ictimai maarifləndirmə sahəsində kifayət qədər yaxşı qurulmamış işlər, ictimaiyyətlə əlaqələr, vətəndaşlara və miqrantlara xidmətlərin göstərilməsi sahəsində kadr potensialının kifayət qədər yüksək səviyyədə olmaması da islahatlara mane olur və siyasi institutların inkişafının keyfiyyət və kəmiyyət göstəricilərinə, eləcə də vətəndaşların rifah halına təsir göstərir. Seçki hüququ, mədəniyyət və etiket, sülh dini, insan sağlamlığı, müasir gənclik, peşə rəhbərliyi, etnik mədəniyyət və tolerantlıq, ailənin planlaşdırılması, gender və harmoniya və digər mövzularda televiziya və radio yayımlarında kifayət qədər məzmunlu maarifləndirmə xarakterli proqramlar yetərli deyil. Bu cür problemlər çap işində və sosial şəbəkə yazılarında da mövcüddur. Bu gün bir çox qurumlar ictimaiyyətlə, müxtəlif kateqoriyalı insanlar və qrup nümayəndələri ilə səmərəli ünsiyyət qurmağın vacibliyini dərk etmirlər.

Müasir dövrdə siyasi institutların işinin uğuru və səmərəliliyi, dəyişiklik və inkişaf üzrə zəruri qərarlar, həmçinin siyasi institutlar tərəfindən öz funksiyalarının yerinə yetirilməsinin, istifadə olunan

idarəetmə mexanizmlərinin, əhaliyə göstərilən xidmətlərin effektivliyi və ünvanlılığının həyata keçirilməsi, dövlət və vətəndaş nəzarəti tədbirlərin keçirilməsi üçün zəruri qərarların qəbul edilməsi əhalinin dövlət və ictimai qurumlardan aldığı məlumatların səmərəliliyindən, etibarlılığından, keyfiyyətindən, əlçatarlığından, həmçinin qarşılıqlı informasiya mübadiləsindən asılıdır.

Cəmiyyətin, onun idarəetmə və qanunverici orqanlarının humanistləşdirilməsi məqsədinə çatmasında jurnalistikanın inkişafına, həm də vətəndaş cəmiyyəti institutlarının inkişafına təkan verən müsbət amillər var. Peşəkarlığı və nəşrlərinin baş redaktorları ilə yaxşı ünsiyyəti sayəsində konkret mövzuları araşdıra bilən, yəni müəyyən sahələrdə peşəkarlaşa bilən jurnalistlər var və onlar bu istiqamətdə dərin təhlillər aparır, analitik yazılarla çıxış edə bilirlər. Tədqiqatın müəllifi hesab edir ki, orta məktəbdən başlayaraq media mədəniyyəti formalaşdırılmalıdır. Uşaqlıqdan etibarən sülh mədəniyyəti, insanlara və ətraf mühitə düzgün insani münasibət, fərqli dinləri, millətləri və etnik qrupları təmsil edən insanlara, habelə inklüziv münasibət və təhsil tələb edən bir qrupa mənsub insanlara, əlillərə, ailə üzvləri münaqişələr və ya təbii fəlakətlər nəticəsində həyatlarını itirən ailələrə qarşı mehriban və tolerant münasibət bəsləmək lazımdır.

*“Müasir şəraitdə humanist paradiqma özünü tərbiyə etmək, özünü inkişaf, müstəqil yaradıcılıq fəaliyyətinin bacarıqlarını inkişaf etdirmək”*[11], innovasiya və ictimai fəaliyyət proseslərini stimullaşdıran pedaqoji texnologiyaların istifadəsinin dəyişkənliyini nəzərdə tutur. Bu yarımfəsildə həm də qeyd edilir ki, jurnalistikanın humanist fikirlərin təbliği və Qlobal Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi üçün elmi və nəzəri bazası mövcuddur. Onun davamlı inkişaf və cəmiyyətin humanistləşdirilməsi məqsədlərinə çatmaq üçün siyasi qurumlar, media və cəmiyyətlə ictimai dialoqun məlumatlandırılması, maarifləndirilməsi və inkişaf etdirilməsi kimi mühüm rolu vardır.

Fəslin **“Siyasi qurumların və jurnalistikanın humanistləşdirilməsi konsepsiyasının transformasiyası”** adlanan

---

[11]Əzimova R.Müasir Azərbaycanda təhsilin sosiologiyası. Bakı, 2014, s.50

ikinci yarımfəslində qeyd edilir ki, Azərbaycanda ictimai həyatın modernləşməsi şəraitində, postsovet məkanının digər ölkələrində olduğu kimi, siyasi institutların humanist təyinatı ilə bağlı baxışları da dəyişir, yeni siyasi hakimiyyət qurumlarının humanist istiqaməti yeni dəyər və məna qazanır. Azərbaycan, Rusiya, Gürcüstan və Qazaxıstan kimi ölkələrin mövcud sənayedən postsənaye, informasiya cəmiyyətinə keçiddə olduğunu nəzərə alsaq, meyilləri öyrənmək və siyasi qurumların, medianın fəaliyyətindəki dəyişikliklərin xarakterini, mənbələrini və istiqamətlərini araşdırmaq son dərəcə vacibdir.

Ötən əsrin əvvəllərində Azərbaycanda görkəmli siyasi xadimlər, maarifçilər, incəsənət nümayəndələri və xeyriyyəçilər vətəndaş cəmiyyətinin formalaşmasında yaxından iştirak etdilər.

Azərbaycanda xeyriyyə təşkilatlarının inkişafında mesenat Zeynalabdin Tağıyevin, Ağa Musa Nağıyevin, Ağabala Quliyevin, Nabat Aşurbəyovanın, Murtuza Muxtarovun, Şəmsi Əsədullayevin və başqalarının böyük rolunu qeyd etmək lazımdır.

Hazırda postsovet məkanında formalaşan müstəqil ölkələrdə, o cümlədən Azərbaycanda, yeni siyasi institutlar, Prezidentlik İnstitutu, Ombudsman İnstitutu, Parlamentarizm İnstitutu inkişaf etdirilir, inzibati-məhkəmə sisteminin humanistləşdirilməsi istiqamətində islahatlar aparılır, İctimai Mətbuat Şurası, Azərbaycan Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstək Agentliyi və könüllü hərəkatlar fəaliyyət göstərirlər. Onların arasında Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyini (ASAN xidmət) də xüsusi olaraq qeyd etmək olar. Onun vəzifələrindən biri əhalinin dövlət strukturlarına inamının artırılmasıdır. Siyasi institutlarda humanistləşmə prosesləri hüquqi və sosial xidmətlərin mövcudluğu, vətəndaşlarla ünsiyyətdə operativlik və peşə etikası və ictimai dialoqun inkişafı ilə bağlıdır.

Bu gün dövlət, beynəlxalq və vətəndaş cəmiyyəti təşkilatları Vətən müharibəsində Möhtəşəm Qələbədən sonra erməni hərbi birləşmələrinin işğalından azad olunmuş torpağlarımızda mina və partlamamış hərbi sursatlardan təmizlənməsi və bərpa işlərini, mina təhlükəsizliyi ilə bağlı maarifləndirmə işlərini, şəhid ailələrinə və qazilərə xüsusi diqqət və qayğı göstərilməsi üçün sosial proqramlar

işlənilir, qaçqın və məcburi köçkünlərin doğma yurda qayıdışa və reinteqrasiyaya hazırlanması sahəsində zəruri işlər görülür. Ölkə prezidenti İlham Əliyevin sərancamı ilə 2021-ci ilin may ayının 7-də Azərbaycanın mədəniyyət paytaxtı elan olunmuş "Şuşa" şəhərində tarixi-mədəni irsin bərpası və qorunması və təbliğ olunması sahəsində tədbirlər keçirilir, Şuşada "Xarıbülbül" musiqi festivalının qala konserti təşkil edilib, 16 iyun 2021-ci il tarixində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi imzalanıb, "Şuşa" ili elan olunmuş 2022-ci ildə Dünya Azərbaycanlılarının V Qurultayı keçirilib. TÜRKSOY Şuşanın 2023-cü ildə Türk dünyasının mədəniyyət paytaxtı elan olunmasına dair qərar qəbul edib. Azərbaycan Türk Dövlətləri Təşkilatının təsisçi ölkələrdən biri kimi onun inkişafı ilə bağlı mühüm təşəbbüslərlə çıxış edib. Ölkə Qoşulmama Hərəkatına tam hüquqlu üzvü olaraq koronavirus təhlükəsinin ilk günlərindən etibarən qlobal həmrəylik çağırışlarına dəstək vermişdir, Ümumdünya Səhiyyə Təşkilatına könüllü maliyyə yardımı ayırmışdır, Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılmışdır. Ölkədə icmaların inkişafı, təhsildə yeniliklərin tətbiqi, əhalinin maarifləndirilməsi, məktəbdənkənar ekoloji təhsil, uşaq və gənclərə vətənpərvərlik hisslərinin aşılanması, onların İKT bacarıqlarının inkişafı, məktəb jurnalistikasının inkişafı, Xocalı faciəsi, Qababağ və onunla həmsərhəd olan rayonlarının azad olması uğrunda Vətən müharibəsində Qələbədən sonrakı müddətdə bölğədə sülh və inkişafla bağlı həqiqətlərin dünyaya çatdırılması, Azərbaycan xalqının mədəni irsinin təbliği, humanitar forumların, mədəniyyətlərarası dialoqun inkişafı məqsədilə həyata keçirilən layihələr davam etdirilir.

Ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev İrsi Tədqiqat Mərkəzinin, habelə IDEA, UNESCO, UNİCEF, İSESCO, WWF tərəfindən tarix, təhsil, mədəniyyət, ətraf mühitin qorunması və mədəniyyətlərarası dialoqun inkişafı sahəsində həyata keçirilən tədbirlər və tədbirlərin ölkədə vətəndaş cəmiyyətinin inkişafına verdiyi töhfəni də  xüsusilə qeyd etmək lazımdır.

Dissertasiya işinin **III fəsli “Müasir humanist və demokratik çağırışlar və jurnalistika”** adlanır və üç yarımsəfildən **ibarətdir.** Bu fəsildə müasir humanist və demokratik çağırışlar jurnalistikanın inkişafı konteksində tədqiq edilir.

Bu fəslin birinci yarımfəsli “**Qloballaşma və cəmiyyətin demokratikləşməsi, Azərbaycanda siyasi şüurun formalaşması dövründə sosial-ekoloji və vətəndaş jurnalistikası”** adlanır. Bu yarımfəsildə qloballaşma və demokratikləşmə dovründə sosial-ekoloji və vətəndaş jurnalistikasının Azərbaycanda siyasi şüurun formalaşmasında təsiri araşdırılır və sosial-fəlsəfi təhlili aparılır.

Siyasi jurnalistika jurnalistikanın ən mühüm sahələrindən biridir və demokratiyanın işləməsi üçün böyük əhəmiyyət kəsb edir. Jurnalistika nəzəriyyəçiləri Jesper Strembek və Adam Şehatın fikirincə, ideal olaraq, siyasi jurnalistika informasiya təminatçısı, müşahidəçi və siyasi müzakirələr üçün forum kimi fəaliyyət göstərməli, bununla da vətəndaşlara siyasi məsələləri anlamağa kömək etməli və hakimiyyətdən sui-istifadə hallarının qarşısını almalıdır. Sosial jurnalistikanın sahələrindən biri isə müxtəlif vətəndaş təşəbbüslərinin işıqlandırılmasıdır.

Azərbaycanlı jurnalistika nəzəriyyəçisi Aynur Kərimovanın sosial və digər mövzuda media məhsulu hazırlayan media işçilərinin akademik jurnalist təhsilinin olmasının və yaxud qısa peşəkar təlim kurslarında iştirakının vacibliyi, bunların jurnalistlərin etik meyyarlar haqqında məlumatlı olmalarına və bütövlükdə peşəkarlıqlarına müsbət təsir etdiyi fikirləri də maraqlı və həqiqəti əks etdirir. Azərbaycanın nümunəsində ölkələrin bütöylüyü uğrunda haqq savaşlarını, onların nəticələrini və fəsadlarını işıqlandıran yerli və beynəlxalq jurnalistlərin qarşısında olan çağırışlar, pandemiya dövründə jurnalistikanın rolu və vəzifələri, transformasiya dövründə jurnalistlərin etik məsələləri, peşəkar jurnalistikaya “reket” jurnalistikası və “sarı” mətbuatın vurduğu ziyan, onun səbəbləri və jurnalistikanın inkişaf yolları təhlil edilir. Cəmiyyətin modernləşməsi və humanistləşməsi şəraitində siyasi institutların vəzifələri və fəaliyyətlərinin prioritet istiqamətləri müəyyənləşdirilərək ətraflı araşdırılır.

Ekoloji jurnalistikanın vəzifəsi insanları ekoloji məsələlərlə maraqlandırmaq, vəziyyətin yaxşılaşdırılmasına yönəlmiş müxtəlif səviyyələrdə keçirilən xüsusi tədbirlərdə fəal iştirak etməkdir. Azərbaycanda peşəkar jurnalistikanın inkişafı istiqamətində keçirilmiş təlimlər "Yaşıl qələm" ("Green Pen" - Azərbaycan) jurnalistlərin ekoloji biliklərinin artırılmasına və Azərbaycanda ekoloji jurnalistikanın inkişafına töhfə vermişdir. Ekoloji təhsil və təlim sahəsindəki səmərəli təşəbbüslər arasında, tələbələrin ekoloji biliklərini artırmaq və gənc yaşlarından vətəndaşları ətraf mühitlə bağlı problemin həllinə cəlb etmək məqsədi ilə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərlik etdiyi IDEA İctimai Birliyi tərəfindən Təhsil Nazirliyi ilə birlikdə 2016-cı ildə Azərbaycanda həyata keçirilən "Ətraf mühiti qoruyun" təlim proqramını da xüsusilə qeyd etmək lazımdır. Ətraf mühit jurnalistikasının humanist və maarifləndirici təbiəti, qlobal ekoloji proseslər dövründəki məqsədini peşəkar jurnalistlər və media rəhbərləri də qeyd edirlər.

Fəslin **"Cəmiyyətin modernləşməsi və humanistləşdirilməsi şəraitində Azərbaycanın siyasi qurumları"** adlanan ikinci yarımfəsildə insanların sosial məlumatlandırması sahəsində fəaliyyətlərin daha da gücləndirilməsi, vətəndaş təşəbbüslərinin geniş dəstəklənməsi, cəmiyyətdə söz azadlığı və ictimai dialoqun inkişafı üçün şəraitin daha da yaxşılaşdırılması, tərəfdaşlığın və şəffaflıqla bağlı islahatların davam etdirilməsinin vacibliyi vurğulanır. Bu islahatlar nəticəsində insanların sosial rifahının yaxşılaşdırılmasını əldə etməklə bərabər, hüquqların təmin olunmasında və humanizm dəyərlərininin təbliğ və təşviq edilməsində, dövlət qurumları ilə tərəfdaşlığın inkişafında müasir konverqent jurnalistikanın rolu xüsusilə qeyd edilir.

Azərbaycanda dəyişikliklər təkamül xarakterlidir və xalqa, yaradıcı və fəal gənclərə arxalanır, ölkədə dəyişikliklər və modernləşmə məqsədlərinə nail olunur. Modernləşmə proseslərinin öyrənilməsi dəyişiklik prosesində cəmiyyətlər üçün böyük nəzəri və praktik əhəmiyyət daşıyır. Ölkədə aparılan modernləşmə kursu siyasi hakimiyyət qurumlarının işinin yaxşılaşdırılmasında, institusional islahatların aparılmasında, dövlət və ictimai təşkilatların işçilərinin kadr potensialının gücləndirilməsində, həmçinin ölkəni beynəlxalq

forumlarda, elmi simpoziumlarda, sərgilərdə, müsabiqələrdə və oyunlarda tanıtmaqda xüsusi əhəmiyyət daşıyır.

Qeyd etmək istərdik ki, Bakıda keçirilən beynəlxalq humanitar forumlar və İslam Konfransı ölkələrinin rəhbərlərinin görüşləri, Azərbaycan alimlərinin və siyasətçilərinin dünyanın müxtəlif ölkələrindən olan həmkarları ilə elmi və ictimai əlaqələrinin inkişafında müsbət rol oynamışdır. Azərbaycanın sülhsevər, tolerant və inkişaf etmiş bir ölkə kimi imicini möhkəmləndirmişdir.

Azərbaycanda humanist ənənələrin inkişafı, qorunması və ədalətli cəmiyyətin qurulması üçün xalq və rəhbərlik arasında humanist ənənələrin və ölkəni firavan və yüksək inkişaf etmiş, sivilizasiyamız naminə faydalı olması bütün şərtlər, rəhbərliyin iradəsi mövcuddur.

Sonuncu fəslin üçüncü yarımfəsli **"Cəmiyyətin institusional inkişafı və humanistləşdirilməsində beynəlxalq təşkilatların rolu"** adlanır.

Bu yarımfəsildə beynəlxalq təşkilatların cəmiyyətin inkişafında və humanistləşməsindəki rolu təhlil edilir. Siyasi institutların inkişafında müxtəlif dövlətlərin, beynəlxalq təşkilatların - BMT, UNESCO, UNİCEF, BƏT, Dünya Bankı, ATƏT, USAİD, TACİS və digərlərinin sosial və ekoloji proqramları dəstəklənir. Burada humanitar normaları tətbiq edən nəhəng bir sistem yaradılmışdır və o demokratik rejimlərin sayını artırır.

Humanistləşmə müasir dünyadakı əlamətdar istiqamətlərdən biri, tərəqqinin mövcudluğu, beynəlxalq hüququn və humanitar dəyərlərin əhəmiyyətinin güclənməsi, beynəlxalq birliyin bu istiqamətdəki səylərinin əhəmiyyəti, insanın özünəinamının tanınması, hüquq və azadlıqlarının təmin edilməsi kimi qəbul edilməlidir.

Qlobal miqyasda BMT-nin ixtisaslaşmış təşkilatlarından olan Qızıl Xaç və Qızıl Aypara təşkilatları da cəmiyyətdə insanlıq meyarının və humanizm prinsipinin bərqərar olması üçün lazımi fəaliyyət göstərirlər.

Azərbaycanın tale yüklü məsələsinə gəldikdə, hesab edirik ki, Ermənistan-Azərbaycan münaqişəsinin həlli, Ermənistanın işğalı altında olan Azərbaycan torpaqlarının azad edilməsi məsələlərində

beynəlxalq təşkilatlarla əməkdaşlığı davam etdirmək lazımdır, beynəlxalq hüquq, norma və qaydalara əməl etmək, qanunvericilik sistemini, iqtisadiyyatı, təhsili, sosial müdafiəni, mədəniyyəti və kommunikasiyanı, sağlamlıq və idmanı inkişaf etdirməyə yönəlmiş təşəbbüslər və proqramlar hazırlamaq lazımdır.

Qeyd edilir ki, siyasi institutlarda institusional inkişafla bağlı aparılan islahatların daha da genişlənməsi, dövlət-özəl sektorunun tərəfdaşlığının inkişafı, bələdiyyə strukturlarının və vətəndaş cəmiyyəti institutların inkişafı üçün hüquqi, sosial-fəlsəfi bazanın gücləndirilməsi, dövlət idarəetmə strukturlarında və ictimai təşkilatlarda kadr potensialının gücləndirilməsi, kommunikasiya strategiyalarının daha ünvanlı və səmərəli qurulması və icrası, vətəndaşların məlumat əldə etmə hüquqlarının təmin olunması və onlara göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi müasir dovr üçün olduqca  zəruridir.

Multikulturalizm və sülh mədəniyyəti sahəsində siyasi və sosial institutların beynəlxalq əməkdaşlıq və dialoqunu davam etdirmək vacibdir.Bu çərçivədə keçirilən tədbirlər təsdiqləyir ki, ölkəmizdə multikulturalizm ənənələrinin inkişafı və möhkəmlənməsi üçün bütün lazımi siyasi və sosial şərait yaradılıb.

2014-cü ildə yaradılan Multikulturalizm Bakı Beynəlxalq Mərkəzinin filialları Almaniya, İsrail, Rusiya, İspaniya, Moldova, Portuqaliya, İtaliya, Qazaxıstan da daxil olmaqla müxtəlif ölkələrdə fəaliyyət göstərərək dözümlülük, insan haqlarına hörmət, humanizm və  multikulturalizm ideyalarını təbliğ edirlər.

Azərbaycan beynəlxalq təşkilatlarla uğurla əməkdaşlıq edir. Onlarla əməkdaşlıq edərək siyasi hakimiyyət institutlarını və  hüquqi sahəni inkişaf etdirir, idarəetmə sistemini modernləşdirir və multikulturalizm ənənələrinin qorunması, mədəniyyət abidələri, ətraf mühitin qorunması, dövlət xidmətlərinin yaxşılaşdırılması və şəffaflığın təmin edilməsi sahəsində təcrübələrini bölüşür.

Dissertasiya işinin **Nəticə** hissəsində araşdırmalar nəticəsində əldə edilmiş əsas nəticələr üzrə ümümləşdirmələr aparılıb və tədqiqata yekun vurulur. Tədqiqatda siyasi institutların fəaliyyəti haqqında cəmiyyətin məlumatlandırılması və onların media və sosial şəbəkələrlə qarşılıqlı əlaqədə cəmiyyətə göstərdiyi xidmətlərin

təkmilləşdirilməsi prosesi müəyyən olunub və təhlil edilib, bu prosesdə jurnalist və vətəndaş etikasının, eləcə də obyektiv ictimai nəzarətin vacibliyi qeyd edilib.

Tədqiqatda texnoloji yeniliklərdən istifadə etməklə sosial, ekoloji, vətəndaş jurnalistikasının, müasir konvergent jurnalistikanın inkişaf etdirilməsinin, insanların vətəndaş və ictimai fəallığının dəstəklənməsinin, sosial inkişaf məsələlərinin həllində onların rolunun artırılmasına dəstək olunmasının vacibliyi vurğulanır.

Media siyasəti və yeni media ilə münasibətlər sistemində strateji problemlərin həlli üçün tövsiyələr kimi tədqiqatın müəllifi ölkədə informasiya-kommunikasiya siyasətinə düzəlişlər etməyi təklif edir. Xüsusilə təklif olunur: KİV-in iqtisadi tənzimlənməsi (imtiyazlı kreditləşmə və vergitutma) ilə bağlı milli qanunvericiliyə əlavələr; "açıq informasiya cəmiyyəti" siyasətinin praktiki həyata keçirilməsi: KİV üçün informasiyaya bərabər çıxışın həyata keçirilməsi; ictimai əhəmiyyətli məlumatların verilməsindən imtinaya və ölkədəki iqtisadi və ictimai-siyasi vəziyyətlə bağlı yalan məlumatların yayılmasına görə səlahiyyətli orqanlar üçün məsuliyyətin müəyyən edilməsi; kütləvi informasiya vasitələrinin təmərküzləşmə və inhisarlaşma səviyyəsinin iqtisadi tənzimlənməsi; kütləvi informasiya vasitələrinin qeydiyyatı zamanı təsisçilər üçün peşəkarlıq meyarlarının tətbiqi; ədalətli rəqabət şəraitində bərabər imkanlar yaratmaqla yerli media bazarının inkişafına dəstək verilməsi; maarifləndirici və maarifləndirici proqramların həyata keçirilməsi yolu ilə kütləvi informasiya vasitələrinin istehlakçılar üçün əlçatanlığının təmin edilməsi. Qeyd etmək lazımdır ki, elmi tədqiqatın nəticələri praktiki əhəmiyyəti ilə diqqəti cəlb edir. Əldə olunan nəticələr və müəllifin tövsiyələri cəmiyyətdə və müasir jurnalistika sahəsində humanizmin dərindən dərk edilməsinə, bu sahədə vətəndaş təsisatlarının fəaliyyətinin gücləndirilməsinə, siyasi, humanitar, sosial və ekoloji mövzular üzərində işləyən jurnalistlərin peşəkarlığının yüksəldilməsində müsbət rol oynaya bilər.

**Dissertasiyanın əsas nəticələri müəllifin aşağıda göstərilən əsərlərində öz əksini tapmışdır:**

1.«Идеология в полиэтническом государстве: социально-философское осмысление гуманитарно-правовых аспектов национальной политики (на примере Азербайджана). AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. Milli strategiyalar, ideologiyalar və beynəlxalq münasibətlər: tarix, nəzəriyyə və müasir praktikalar. Toplu. «Elm və təhsil», Bakı, 2012, s.572 – 594.

2.Социально-философский анализ роли религии и гуманизма в поддержании мира согласия в современном обществе. AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. Cəmiyyət və din: tarix və müasirlik. Bakı, “Təknur”, 2013, s.386-407.

3.Sosio-philosophical congnition of the role of socio-ecological journalism in humanization of ecological policy in Azerbaijan. Abstracts collection on New Challenges in the European Area: International Baku Forum o Young Scientists. 20-25.05.2013.p.149-159.

4.Социально-философское осмысление роли социально-экологической журналистики в гуманизации экологической политики в Азербайджане. AMEA Fəlsəfə və Hüquq İnstitutu. “Elmi əsərlər”, beynəlxalq elmi-nəzəri jurnal N2 (23), Bakı,2014, s.78-87.

5.Мультикультурное просвещение, справедливый гуманизм и религия во благо человечества и развития: социально-философский анализ на примере Азербайджана. Azərbaycan Respublikası Təhsil Nazirliyi, Doktorantların və gənc tədqiqatçıların XX respublika Elmi Konfransının materialları. Azərbaycan Dövlət Neft və Sənaye Universiteti. 24-25 may 2016-ci il, 2 clilddə, II cild, Bakı, 2016, s.581- 586.

6.Социально-философское осмысление развития социально-экологической журналистики». Сборник научных статей: «Gileya: scientific herald». 123 выпуск (8), 2017 г. Педагогического Университета имени М.П.Драгоманова. с.213-218.

7. «Социально-философский анализ роли журналистики в продвижении идей гуманизма в образовательной политике». Материалы Международной научно-практической конференции «Роль общественных наук в обеспечении стабильности развития глобальных мировых процессов в XXI веке.», 3-4 апреля 2020 г., г. Киев, Украина. Київська наукова суспільнознавча організація.с.54-58.
8.“Социально-философский анализ понятия гуманизма в современной философии». Гілея Філософскі Науки Випуск 154 (3), Збірник наукових праць «Гілея: науковий вісник», 2020, с.244-248.
9. “Культурная преемственность и философские аспекты мировоззрения гуманизма в науке и журналистике: социально-философский анализ». Mədəniyyət Dünyası, Elmi-mədəni məcmua, XXXİX buraxılış, Bakı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, 2021, s.190-199
10. Социально-философский анализ теоретических воззрений и концепций журналистики на примере Азербайджана и зарубежных стран. Geostrategiya. Beynəlxalq, ictimai-siyasi, elmi-nəzəri jurnal. 2021 №1(61), Bakı,“Kaspi PD” MMC, s.140-144.
11. “Heydər Əliyev, Azərbaycançılıq, Gənclik və humanitar dəyərlər”. “Heydər Əliyev müasir Azərbaycan Dövlətinin qurucusudur” mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, ADNSU, 05 may 2023, s.248-250.
12. Modern problems of culturology and communication in example of Azerbaijan. “Cultural studies and social communications: innovation strategies of development”, Harkov State Academy of Culture (Ukraine). 22-23 noyabr, 2023, s.4-7.
13. «Традиции мультикультурализма, этнокультурного развития, национального единства и приверженности к справедливому гуманизму: на примере Азербайджана». Материалы международной научно-практической конференции “Азербайджанское искусствоведение в контексте диалога восток-запад». Азербайджанский

Университет Культуры и Искусства, 17 ноября, Баку, 2023, с.141-149.

14. Sosio-philosophical analysis of the role of journalism during the period of transformation and modernization of political institutions using the example of Azerbaijan (Вісник Львівського університету. Серія філософсько-політологічні студії – це збірник наукових праць, у якому висвітлено актуальні проблеми методології політичних та філософських наук. Львівський національний університет імені Івана Франка. 2024, 02 (N53), p. 114-122.

15.”Социально-философское осмысление роли социально-экологической журналистики в продвижении солидарности, чистой окружающей среды и зеленого роста: на примере Азербайджана”. «Mədəniyyət: Problemlər və Perspektivlər”(Bakı şəh.19 aprel 2024-cü il), ((2024-cu ilin “Yaşıl düna naminə həmrəylik ili” elan edilməsinə həsr olunur); (Doktorant və gənc tədqiqatçıların XVI Respublika elmi konfransının materialları) (məqalələr toplusu), Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti-Bakı:ADMİU, 2014, s.7-15.

Dissertasiyanın müdafiəsi 24 sentyabr 2024-cü il tarixidə saat 11^00^ Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.33 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Unvan: Bakı ş., AZ 1143, Hüseyn Cavid pr., 115, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, IX mərtəbə, konfrans zalı.

Dissertasiya ilə AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 4 iyul 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 27.06. 2024

Kağızın formatı: A5

Həcm: 36741

Tiraj: 30